# AĞRILI YADDAŞ YOLU

Düşüncədə özünə yer eləmiş həyat hadisələri bəzən o qədər geniş və əhatəli olur ki, müəllif onu məhdud ifadə hüdudlarına sığışdıra bilmir. Hadisələr çözələnir, yaddaş öz xəzinəsinin qapısını açdıqca, əhvalatlar bir-birini dabanbasma təqib edir. Və müəllif istər-istəməz yazının axarına tabe olur. Beləliklə, bəzən müəllif kiçik bir həyat hadisəsini qələmə almaq istəsə də, fikir axarı boyunca irəlilədikcə daha geniş düşüncələr yazıya gəlməkdə davam edir. Beləliklə, bir hekayə kimi nəzərdə tutulan, bir həyat hadisəsi povestə, hətta romana çevrilir. Əlbəttə, bu da yazıçının mənəvi-psixoloji hazırlığından çox asılıdır. Həyat xammalı nə qədər çoxdursa, yazıçı da hadisələrin bir-biriylə əlaqələndirilməsi üçün asanlıqla manevr edir.

Şəfəq Nasirin "Beyləqanın güllü yazı" kitabına daxil edilmiş "Əlvida demədim" povesti düşünmək olar ki, elə onun bir müəllif kimi mövzuya daha dərindən, daha yaxından, daha çox simsarlığından yaranıb.

Əsər birinci şəxsin dilindən uşaqlıq xatirələri kimi başlayır. Müəllif əvvəlcə doğulub-böyüdüyü mühiti yada salır. Sanki danışacağı əhvalatın - yaddaşında özünə yer eləmiş hadisələrin yazıya gətirilməsində məkan amilini birinci olaraq qabağa çəkir. Beləliklə, biz baş verən hadisələrin məkanı ilə, onun mahiyyəti arasında dərin bir bağlılıq olduğunu görürük. Sanki, müəllif bir yazı sarayı qurmaq istəyir. Bu saray bütün əzəməti ilə onun gözlərinin qabağındadır. Ancaq onu reallaşdırmaq, tikmək, başa çatdırmaq üçün etibarlı bir özül qurulmalıdır. Özül isə bünövrə deməkdir - him daşıdır. Özül nə qədər möhkəm olarsa, saray da bir o qədər davamlı olar, dayanıqlı olar. Zaman keçdikcə insan düşüncəsində kataklizmlər baş verir. Cəmiyyətin hadisələri insanın həyata baxışını dəyişdirir. Bəzən dünən məqbul olan bu gün qeyri-məqbul kimi görünür. Ona görə də yazıçı öz əsərini həm ideal, həm də düşüncə baxımından elə səviyyədə yaratmalıdır ki, gələcəkdə baş verən hər hansı bir meyar dəyişikliyi onu dəyərdən sala bilməsin. Onun insanların hisslərinə, duyğularına təsir etmək imkanın məhdudlaşdırmasın. Məhz bu səbəblər üzündən bir çox yazıçılar düşüncə aləmlərindəki yaddaş saxlancını sənətə çevirə bilmirlər. Tərəddüdlər, həyat hadisələrinə ictimai məna vermək məhdudiyyəti yazıçını özünü ifadə etmək imkanlarından məhrum edir. Qeyri-adi bir sənət əsəri yaratmaq istəyi ilə yanıb-yaxılan yazıçı düşündüyü mövzunu yazıya gətirə bilmir. Görünür burada mövzuya yanaşma baxımından yazıçının istedadı, intellekti və ən başlıcası zəhmətə qatlaşma gücü xüsusi əhəmiyyət kəsb edir. Şəfəq Nasir birinci növbədə zəhmətkeş yazıçıdır. O, qələmi əlinə götürməkdən qorxmur, ona görə ki, kifayət qədər mənəvi, psixoloji hazırlığı və düşüncəni yazıya gətirmək istedadına malikdir. Ona görə də onun hər hansı bir yazıya başlamasında psixoloji gərginlik hiss olunmur. O, sanki heç qarşısına nəsə yazmaq məqsədi qoymayıb, sanki sənətkarlıq məqsədi ilə nəsə yazmaq fikrində də deyil, sadəcə onun hisslərinə, duyğuylarına hakim olan yaddaş saxlancını öz oxucusuna danışmaq istəyir.

"Beyləqanın güllü yazı" kitabında verilmiş "Əlvida demədim" povestindəki əhvalatlar da müəyyən mənada bu adiliyi ilə diqqəti cəlb edir. Yuxarıda qeyd etdiyimiz kimi əvvəlcə yazıçı məkandan başlayır. Bu məkanı qədərincə, bütün əhatəliliyi ilə diqqətə çatdırmaq istəyir.

Şəfəq Nasirəvvəlcə məkanı həm yazısının, həm də düşüncəsinin bünövrəsi kimi təsəvvür etdiyindən detalları yaddaşında olduğu kimi qələmə alır: "A-tamgil düz-dünyanın guya əmin, vaxtı - 1952-ci ildə ermənistandan Azərbaycana köçürülüblər. Mil düzünə düşüblər. İlk vaxtlar öz ata-baba yurdlarının diş göynədən sularından, təmiz, sərin havasından sonra aran yerinin quraqlığında, od ələyən havasında, ilan-çayanlı torpağında çətin duruş gətiriblər.Ancaq neynəsinlər, taleyin yazısından hara qaçsınlar. Bir il, para il, o yan-bu yan - axırı dözüm gətiriblər. Başlayıblar özlərinə ev-eşik düzəltməyə. Ər-arvad palçıq ayaqlayıblar, çiy kərpicdən iki alt, iki üst ev tikiblər. Günü bu günəcən atamızın yurdçusu-yeganə qardaşımızın canı, əli həmən evin üstündədi. Əyər-əskiyini, uçub-tökülənini tikib-düzəldir. Qapı-bacasında, çal-çəpərində atamızın səliqə-səhmanını tamamlayır". Beləliklə, biz insanın necə məskən salmağını, qırılmış istəklərin, duyğuların faciəsini, ağrısını bu kiçik parçada qədərincə görə bilirik. Müəllif sonra min bir zəhmətlə, rahat, əmin-aman bir həyata başlamaq niyyəti ilə yaradılmış evin astanasında dayanır. Sanki onun hər cizgisində, divarında, küncündə iz buraxmış insan zəhmətinin nə demək olduğunu o gözəgörünməz iz - yazılarla oxumaq istəyirik. Ona görə də həmin ev əsərin qəhrəmanına, bu gün həyatda özünə kifayət qədər yer tutduğuna inandığımız balaca Səmanın düşüncələri kimi yanaşmırıq. Yaxşı tanıdığımız insanın, zəka sahibinin həyatının başlanğıcı kimi yanaşırıq. Həmin ev nə qədər Səma üçün doğmadırsa, bizim üçün də bir o qədər doğmalaşır. Yaddaş evi kimi gözlərimizin önündə əzəmət kəsb edir. Və istər-istəməz biz bu balaca qızın həyat yolunu izləməyə, onun yaddaşında söz-söz közərən ağrılara şərik olmaq istəyirik. Müəllif Səmanın dilindən deyəndə ki, "Dağların dərman havası, otların, çiçəklərin ətri, ananın yaddaşında bir havaya dönüb Mil düzü boyu onilliklər boyu yaşamaqda davam edir", buna biz də inanırıq. Ananın dilindən səslənən "Yatanda da yönümü dağlarımıza sarı çevirirəm" hökmünə biz də bütün varlığımızla inanırıq.

Şəfəq Nasir hadisələri bir-birinə calamağa tələsmir. Bircə cizginin açdığı cığırla düşüncə aləminin dərinliklərinə yeriyir. Və yeridikcə bu cığırların diz qanadan, ayaq didən tikanlıqlarının açdığı yaraların göynəminə diqqəti çəkir. Bizdən asılı olmayaraq bu göynəmin bünövrəsini arayırıq, səbəbini arayırıq. İstər-istəməz dünyanın hələ də ədalət nizamına tabe olmadığına biz də acıyırıq. Ona görə ki, Şəfəq Nasirin bir yazıçı olaraq milli yaddaşa diktə etmək istədiyi həyat hadisələrini düz əlli ildən sonra - 88-ci ildən üzü bəri təzədən yaşamalı olduq. Tarixi yurd yerlərinin - Qərbi Azərbaycan ağrısı erməni vandallarının qəsbkarlıq niyyəti ilə yenidən baş qaldırdı. Və hələ bu azmış kimi böyük Qarabağ faciəsi də həmin ağrıların davamına çevrildi. Müəllif yerindən-yurdundan qopmuş insanların ağrısını, dərdini sadəcə sıralanan cümlələrlə deyil, ağrıya-acıya bürünmüş odlu kösövlərə çevrilmiş, köz-köz görünən sözlərlə dilə gətirir: "Facəidir, dəhşətdir, yadına düşəndə ki, torpağı ayağının altında, günəşi başının üstündə, suyu ovcunun içində olan doğmaca ata-baba yurdundan, ocağından əlin üzülüb-əsim-əsim əsirsən. Bir vaxt sənə yaxın olan hər şey, sonra əlçatmaz, ünyetməz zirvəyə qalxır. Elə bu dərd-sərin içindəcə ömrün olanı əriyirsən, kiçilirsən-dünyadan köçürsən.

Ağrı var baş ağrısı, diş ağrısı. Ağrı da var ürək, yaddaş ağrısı. Yaddaşın ağrısı yaman olur". Doğrudur ki, müəllif ağrıları müəyyən silsilələrə ayırır. Hətta baş ağrısının, diş ağrısının belə bu sırada yerini göstərir. Ancaq biz inanırıq ki, bu baş ağrısı da, diş ağrısı da öz mənbəyini yaddaş ağrısından götürür. Çünki yaddaş ağrısı həsrət ağrısı olaraq, qırılmış arzuların ağrısı olaraq ürəklərə hücum edir. Ürəyi parçalayır, dağıdır. Və sanki insanı cismani ölümün qapısının ağzına çəkir.

Əgər belə demək mümkünsə, "Əlvida demədim" povestinin proloqu, başlanğıcı - və əsərin bütün mahiyyətini özünə çəkmiş hissəsi burada bitir.

Şəfəq Nasir povestin başlanğıcı ilə öz oxucusuna elə mesajlar verir ki, oxucu özündən asılı olmayaraq hadisələrin ümumi axarına qovuşur. Canında, qanında, düşüncəsində yığılmış ağrılarla müəllifə yoldaşlıq eləyir. Sakit, təmkinlə yox, tüğyana gəlmiş hisləri ilə müəllifi tək buraxmır. Onunla simsar olmağa, onun daşıdığı ağrıları yüngülləşdirmək üçün ona pasivan olmağa çalışır.

Ümumiyyətlə, yazıçının ən böyük uğuru oxucusu ilə özü arasında doğmalıq yarada bilmək bacarığıdır. Və Şəfəq Nasir bu doğmalığı sözün həqiqi mənasında özünün sözə doğmalığı ilə yaradır.

Əsərin növbəti hissəsinin başlanğıcında müəllif yenə əsərinin bünövrə daşına qayıdır. Burada biz müəllifi heç də əsərin qəhrəmanından ayıra bilmirik. O qədər səmimiyyətlə "mən" mövqeyindən çıxış edir ki, əhvalatı danışan balaca Səmanı biz onun özü kimi qavrayırıq. Və istəyirik ki, onun ailə mühitini də görək, tanıyaq. Çünki məkan problemi ilə başlanan əsər ev düşüncəsini gözlərimizin önünə gətirmişdi. İstər-istəməz bilmək istəyirik ki, bu evin sakinləri kimlərdir. Ev insan nəfəsi ilə isinər. Bu nəfəsi yaradan insanların bir-biriylə ünsiyyəti, ən başlıcası onların kimliyi bizi maraqlandırır. Bilmək istəyirik ki, əsərin başlanğıcında diqqətimizə çatdırılan faciəvi ağrıların daşıyıcıları bizə nə dərəcədə doğmadır, yaxındır, tanışdır. Şəfəq bir ailənin timsalında bir etnosun özü demiş: "Dünyanın düz vaxtında qatlaşdığı əzabları yaza-yaza xəyanətlərə düçar olmuş xalqın taley yoluna işıq salır". Biz, dünyanı görə-görə və onun ədalətsizliklərinə sinə gərə-gərə özünü dirçəldən, ayaq üstə qalxan, yaşamaq haqqına təzədən sahib olan insan əzəmətini, insan gücünü müəllifin yazı gücüylə qavramalı oluruq. Müəllif ailənin mühitini dəqiq təsvirləri ilə oxucunun yaddaşına yazır: "Valideyinlərimiz müəllim olub, müəllim ailəsində göz açıb böyümüşük. Ailədə beş uşaq olmuşuq. Dörd bacı, bir qardaş. Qardaşımız iki olub. Kiçiyi üç yaşında olanda qonşumuz tacir Həsənin buynuzlu, harın qoçu uşağı möhkəmcə qorxudub. Bundan sonra xəstə düşən qardaşımız bircə həftə yaşayıb. Ondan bizə ancaq bir şəkil qalıb. Həmən yaşda mənim də şəklim var. Onunkuynan yanaşı tutanda elə bil eyni uşaqdı. Deyilənə görə bir almanın tən yarısı mənəmmiş, yarısı o. O tən yarının biri-Mehman torpağın qisməti oldu. Tən yarının o birisi-mən dünyanın ağrı-acısını duyaraq yaşayıram". Bizə aydın olan budur ki, balaca Səma hələ həyata uşaq gözüylə baxanda belə dünyanın nizamının hardasa pozulduğunu görə bilir. Özünün uşaq dünyasının iztirabları ilə baş-başa qalaraq zamanın ağrı-acısını özü demiş duyaraq yaşamaqdadır. Yeni mühitə uyğunlaşma, yeni həyatı yaşama yolunda çətinliklər onun bir qardaşını dünyadan vaxtsız aparır hələ uşaq ikən, özü də kəfəni yırtaraq ölümdən qurtulduğu dünyanın hələ onun üçün görünməz olan aləminə yeriməkdədir. Bu həyatın ən dəhşətli zərbələrindən biri balaca Səmanın atasını 47 yaşında, cavan ikən itirməsidir. Bu istər-istəməz ailənin həyatında dərin, psixoloji bir yara kimi özünə yer eləyir. Çünki cavan atanın həyatdan köçməsi təzədən dünyaya addım atmaqda olan bir nəslin arzularına vurulan bir zərbəydi.

Hekayənin ikinci hissəsi də bu hadisələrlə bitir. Bundan sonra balaca Səmanın yaddaşı yenə hələ atalı-analı dünyasının xoşbəxt günlərinə dönür. Biz əsərdə Səmanın bacıları Firuzəni, Sevinci görürük. Onların uşaq dünyalarındakı şıltaqlıqlar. Uşaq həyatının çoxlarının diqqətini cəlb etməyən görüntülərini balaca qızın yaddaş çözümləri ilə gözlərimizin önündə canlanır.

Şəfəq digər hekayələrində olduğu kimi bu povestində də ilan obrazına müraciət edir. Əslində bu ilanla biz çoxdan tanışıq. O bir qorxu obrazı olaraq taleyin zərbələri ilə çarpışa-çarpışa yol başlayan bir ailənin taleyini izləməkdədir. Hətta balaca Pərvanənin belə bələk əhvalatı da müəyyən ictimai məzmun daşıyır. Ancaq işləmək, çörək qazanmaq üçün bələkdə olan uşağı ən körpə yaşından ayrılmamış, Səmanın ümüdünə qoyub müəllimlik işinin arxasınca gedir. Balaca Səma ilk dəfə rəmzi olaraq Pərvanənin timsalında ölümlə rastlaşır. Ölümün nə olduğunu bilməyən Səma onun vahiməsini varlığında hiss edir. Müəllim Aydının bir ata kimi obrazı əsərdə həyatı cizgilərlə verilir. Onu xaraktercə bütöv, övladlarının tərbiyəsi üçün necə diqqətli və canıyanan olduğunu görürük.

"Əlvida demədim" povestində diqqəti çəkən "Başaq" əhvlaltı da əsərə təsadüfi daxil edilməyib. Bir tikə çörəyin problemi, dərdi, qayğısı bu ailəni necə izləyir. Bunu biz yuxarı nəsil yaddaş sahibi olan oxucular kifayət qədər bildiyimizdən təsvir olunan mənzərə də bizə tanış gəlir. Komunizm istəyi ilə yaranmış quruluş hələ insanları çörəklə belə təmin edə bilmir. Çörək uğrunda mübarizədə birinin məzlumluğu, digərinin zalımlığı bütün sərtliyi ilə üzə çıxır.

"Molla Nəsrəddin" jurnalının qayçılanmış səhifələri haqqında xatirə epizod da oxucu yaddaşına müəyyən işarələr dikdə edir. Sanki ağır həyatın ironiyası ilə balaca Səma jurnalların arasında gizlənmiş "Molla Nəsrəddin"in sarkazm dolu gülüşlərini şəkil-şəkil kəsib həmyaşıdlarına paylayır. Sanki müəllif demək istəyir ki, qoy hər kəs "Molla Nəsrəddin"in öldürücü gülüşünü bir daha yada salsın. Qoy hər kəs həyata bu öldürücü gülüşlərin fonunda bir daha baxsın.

Şəfəq Nasir "Əlvida demədim" povesti ilə öz oxucusunu həyat uğrunda mübarizədə yaşayaraq boy göstərən insanların həyat hekayəsi ilətanış edir. Bu insan taleləri haqqında ağrılı bir hekayətdir. Biz hekayətin davamını hadisələrin sonluğunu səbirsizliklə gözləyirik.

*2020*